# Xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olmalıdırlar



Milli mənlik şüurumuzun təməlində həmrəyliyimizin dayanması qürur doğurur. Bu gün ölkəmiz dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etmiş, iqtisadi potensialına, demokratik inkişaf səviyyəsinə, beynəlxalq aləmdə tutduğu mövqeyinə görə regionun lider dövlətinə çevrilmişdir.

Bu inkişaf həm də Azərbaycan diasporunun formalaşması, təşkilatlanması, mütəşəkkil qüvvəyə çevrilməsinə səbəb olmuşdur. Əldə edilmiş nailiyyətlər dünya azərbaycanlılarının həmrəyliyini gücləndirmiş, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı milli maraqlar ətrafında səfərbər etmişdir.

Soydaşlarımızın tarixi Vətənlə əlaqələrini daha da gücləndirmək istiqamətində Ümummilli Liderin atdığı mühüm addımlardan biri də 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi barədə sərəncamı oldu. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təkan verdi. Dünya azərbaycanlıları ilk dəfə olaraq Bakıda bir araya gəlib qarşıda duran vəzifələri, problemləri, onların aradan qaldırılması yollarını müzakirə etdilər.

Prezident İlham Əliyev də Ulu Öndərdən əmanət qalan əzmkarlığı sayəsində həmrəylik ideallarına sadiqliyini konkret əməli işlərlə sübuta yetirir. 2006-cı il martın 16-da Bakıda Dünya Azərbaycanlılarının II, 2011-ci ilin iyulunda III, 2016-cı ilin iyununda IV qurultaylarının keçirilməsi bunun əyani təsdiqidir.

Dünya Azərbaycanlılarının IV qurultayının açılış mərasimində nitq söyləyən Prezident İlham Əliyev hamını bir daha birliyə, həmrəyliyə, Vətən naminə fədakarlıqlara səslədi. Bu çağırış xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsinə güclü təkan verdi. Təsadüfi deyil ki, bu gün birliyin və həmrəyliyin tam təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlər yüksək səviyyədə həllini tapır.

Dövlət başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir, dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyon soydaşımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında birləşməsinə böyük töhfələr verir. "Biz istəyirik ki, dünyada yaşayan azərbaycanlılar öz tarixi Vətənləri ilə əlaqələrini heç vaxt kəsməsinlər. Daim əlaqədə olsunlar, Azərbaycan ilə bağlı olsunlar", - deyən Prezident xalqımızı milli həmrəyliyə səsləyir. Deyir ki, artıq torpaqlarımız işğaldan azad olunub, müstəqilliyimizin 30-cu ildönümünü qalib dövlət, torpaqlarını işğaldan azad etmiş xalq kimi qeyd etdik.

44 günlük Vətən müharibəsi müddətində insanlarımız bir daha öz rəhbərinin müdrikliyinə və siyasi iradəsinə şahidlik etdilər. Həmin günlər Prezident İlham Əliyevin yenilməz qətiyyəti bütün xalqı qələbəyə kökləndirdi. Məhz Azərbaycan rəhbərinin ortaya qoyduğu nümunə xalqımızı bu müqəddəs savaşda zəfərə qovuşdurdu.

Azərbaycanın tarixinə daha bir şanlı səhifə yazılıb - Zəfər qurultayı. Dünya Azərbaycanlılarının V Qurultayının Şuşada keçirilməsi bir daha bütün dünyaya nümayiş etdirdi ki, bu qədim şəhər Azərbaycanın əzəli torpağıdır.

Zəfər qurultayı dünya azərbaycanlılarının həmrəyliyinin təzahürü olmaqla yanaşı, çox mühüm mənəvi, siyasi əhəmiyyətə malik qürurverici tarixi hadisədir. Bütün dünya bir daha azərbaycanlıların harada yaşamalarından asılı olmayaraq öz Prezidenti ətrafında sıx birləşməsinə, həmrəyliyinə şahidlik etdi. Bir sözlə, xalqımız Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli həmrəyliyin mükəmməl nümunəsini yaratdı.

***Natiq QULUZADƏ,***
***YAP Zəngilan Rayon Təşkilatının sədri***

Azərbaycan.- 2022.- 28 aprel.- S.8.